**AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ**
**BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

**SƏRƏNCAMI**

№ 173 «18» iyul 2022-ci il

**"Binəqədi Rayon İcra Hakimiyyəti və Binəqədi rayonunun bələdiyyələrinin fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Şurasının yaradılması haqqında" Binəqədi RİH Başçısının 21 fevral 2020-ci il tarixli 26 saylı Sərəncamında dəyişiklik edilməsi haqqında**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Aparatında, eləcə də, rayonun aidiyyəti bələdiyyə qurumlarında edilmiş kadr dəyişikliklərini nəzərə alaraq və "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 2.11, 3.1.4, 3.2.1, 5.1.4-cü və 6-cı bəndlərini əsas tutaraq;

**Qərara alıram:**

1. "Binəqədi Rayon İcra Hakimiyyəti və Binəqədi rayonunun bələdiyyələrinin fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Şurasının yaradılması haqqında" Binəqədi RİH Başçısının 21 fevral 2020-ci il tarixli, 26 saylı Sərəncamının 3-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

   - "Sədr - **Hacıbaba Babayev** - Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini";

   - "Üzv - **Ehtibar Cabbarov** - Biləcəri bələdiyyəsinin sədri";

   - "Üzv - **Rəşad İsayev** - Binəqədi qəsəbə bələdiyyəsinin sədri "**vəzifə səlahiyyətlərini müvəqqəti icra edən**" oxunsun.

2. Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, sərancamın surətinin aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların**
**müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN